HƏRBİ PEDAQOGİKA
ВОЕННАЯ ПЕДАГОГИКА
MILITARY PEDAGOGY

UOT 355.233

**Müjkan Əbdüləli qızı Məmmədzadə**
*Hərbi Elmi Tədqiqat İnstitutunun elmlər doktoru proqramı üzrə dissertantı,*
*pedaqogika üzrə fəlsəfə doktoru*
*https://orcid.org/0000-0001-5693-3748*
*E-mail: mujkan@mail.ru*
https://doi.org/10.69682/arti.2025.92(1).105-110

# ALİ HƏRBİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏDRİS PROSESİNDƏ İDARƏETMƏ BACARIQLARININ FORMALAŞDIRILMASI

**Мужкан Абдулали гызы Мамедзаде**
*диссертант по программе доктора наук*
*Военного Научно-исследовательского Института,*
*доктор философии по педагогике*

# ФОРМИРОВАНИЕ НАВЫКОВ УПРАВЛЕНИЯ В ОБРАЗОВАТЕЛЬНОМ ПРОЦЕССЕ В ВЫСШИХ ВОЕННЫХ УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ

**Mujkan Abdulali Mammadzadeh**
*doctorial student in the program of doctorial sciences of philosophy*
*at the Military Research Institute,*
*doctor of philosophy in pedagogy*

# FORMATION OF MANAGEMENT SKILLS IN THE EDUCATIONAL PROCESS IN HIGHER MILITARY EDUCATIONAL INSTITUTIONS

**Xülasə.** Məqalədə ali hərbi təhsil müəssisələrində tədris prosesində idarəetmə mədəniyyətinin bacarıqlarının formalaşmasından bəhs olunur. Ali hərbi təhsil müəssisələrinin pedaqoji təhsil sistemində idarəetmə bacarıqları təhsilalanların gələcək karyera quruculuğunda qarşıya çıxan problemlərin həllində böyük rol oynayır.

Bu məqalədə aparılan təhlillər sübut edir ki, ali hərbi təhsil müəssisələrində təhsilalanların idarəetmə bacarıqlarının formalaşması öncə onun mahiyyəti, məzmunu və məqsədlərinin düzgün müəyyən edilməsini, nəzəri ideyaları müxtəlif prizmalardan araşdırır. Məlum olur ki, idarəetmə vərdişlərinin müasir cəmiyyətin tələblərinə uyğun təhsilalanların yeni elmi-siyasi, hərbi, sosial, iqtisadi, mədəni və ekoloji baxışlarının formalaşmasına xidmət edir.
***Açar sözlər:*** *ali hərbi təhsil müəssisələri, təhsilalanlar, tədris, peşə bacarıqları, müstəqil işin təşkili, təhsilalanların sosiallaşması*

**Аннотация.** В статье говорится о формировании умений культуры управления в образовательном процессе в высших военных учебных заведениях. Управленческие навыки в системе педагогического образования высших военных учебных заведений играют важную роль в решении проблем, возникающих в дальнейшем карьерном развитии студентов.

Проведенный в статье анализ доказывает, что формирование управленческих навыков студентов высших военно-учебных заведений требует правильного определения его сущности, содержания и целей, теоретических представлений с разных позиций. Получается, что управленческие навыки служат формированию новых научно-политических, военных, социальных, экономических, культурных и экологических взглядов тех, кто получает образование в соответствии с требованиями современного общества.
***Ключевые слова:*** *высшие военные учебные заведения, обучающиеся, преподавание, профессиональные навыки, организация самостоятельной работы, социализация обучающихся*

**Abstract.** The article discusses the formation of management culture skills in the educational process in higher military educational institutions. Management skills in the pedagogical education system of higher military educational institutions play a major role in solving the problems encountered in the future career building of students.

The analyses conducted in this article prove that the formation of management skills of students in higher military educational institutions first of all requires the correct determination of its essence, content and goals, and the study of theoretical ideas from various prisms. It turns out that management skills serve to form new scientific-political, military, social, economic, cultural, and ecological views of students in accordance with the requirements of modern society.

***Keywords:*** *higher military educational institutions, students, teaching, professional skills, organization of independent work, socialization of students*

Təhsilalanların idarəetmə mədəniyyətinin formalaşması gözlənilən təlim nəticələrinin əldə olunmasına xidmət edir, müasir cəmiyyətdə gələcək hərbçilərin səmərəlilik və məhsuldarlıq bacarıqlarına sahib olmağı tələb edir. Mövcud pedaqoji təhsildə vəziyyətin mürəkkəbliyi, sosial nizamın, normaların, qaydaların, dəyərlərin dəyişməsi, müasir islahatlar təhsilalanların özünü idarəetməsində müəyyən narahatlığa səbəb olmuşdur. Ali hərbi təhsil müəssisələrinin pedaqoji təhsil sistemində idarəetmə bacarıqları təhsilalanların gələcək karyera quruculuğunda qarşıya çıxan problemlərin həllində böyük rol oynayır. Bu baxımdan təhsildə idarəetmə sahəsində peşəkar kadrların formalaşdırılması problemi gündən günə aktuallaşır.

"*Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası*"nın strateji hədəflərindən biri də səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsilin məzmununda ali təhsil müəssisələrinin təhsil – tədqiqat – innovasiya mərkəzlərinə çevrilməsinə dəstək verməsi və rəqabətqabiliyyətli mütəxəssis hazırlığıdır. Bu məqsədlə, elmi-tədqiqat və innovasiyalar mərkəz kimi ali təhsil müəssisələrinin rəqabətqabiliyyətli gənclərin yetişdirilməsi üçün innovativ təhsilalanların auditoriyasının sayının artmasında rolu universitetlərin ən vacib prioritetlərindəndir [1, s. 1].

**Ali hərbi təhsil müəssisələrində tədris prosesində idarəetmənin rolu**

Ali hərbi təhsil müəssisələrində təlimin təşkili prinsipləri təlim prosesində və təlimdənkənar fəaliyyətlərdə tapşırıqların icrası zamanı əldə olunan qabiliyyətlərin və ümumi həyat keyfiyyətlərinin artırılmasında istifadə edilməlidir. K. Ordonezin fikirlərinə görə, XXI əsrin təhsil ehtiyaclarını ödəmək üçün təhsilalanlar öz gələcəklərini xəritəsiz bir yolla təsəvvür etməli və öyrənmə ehtiyaclarını ödəyən yeni paradiqmaları yeni bir nümunə və ya model kimi axtarmağa başlamalıdırlar. Tədqiqatçı alimin qeyd etdiyi kimi, idarəetmədə əsl liderin vəzifəsi mövcud məqsədləri ifadə etmək üçün inkişaf etdirmə vasitələrindən kənara çıxmaqdır [2, s.249].

Təhsilalanların müstəqilliyinə və özünüidarəsinə təsir göstərən digər element uyğun davranış modelinin qurulmasıdır. Bəzən bu sahədə kifayət qədər problemin olması səbəbi təlimdə uyğunsuzluqlar baş verməsi ilə nəticələnir. Bu məqsədlə, alimlər təhsilalanların idarəetmə davranışlarında müasir strategiyaların təsirini araşdırmağa başladı. Ən yaxşı strategiyalardan biri də davranış problemlərinin meydana gəlməsinin qarşısını almağa kömək edən metodları öyrənməkdir. Hər təhsilalanın maraqları və ehtiyacları fərqli olsa da, müəllimlər problemlərin qarşısını almaq üçün uyğun qaydalar tətbiq etməlidir.

G.T. Milkoviç və J.M. Nyumən (Milkovich, G.T. & Newman, J.M. 2005) ali hərbi təhsil müəssisələrində tədrisin idarəetməsində səriştəlilik tərifinə motivlərlə əlaqəli qeyri-müəyyən fikirlərin, anlayışların, xüsusiyyətlərin real həyatda hər hansı bir problemlə bağlı davranış təsvirləri ilə əvəzlənəcəyini iddia edirlər. Daha yüksək davranışı olan təhsilalanların özünüidarə səriştələri yüksək rifah, dayanıqlılıq, akademik səmərə və dəyişikliyə uyğunlaşma qabiliyyətinə sahib olduğunu sübut edir [3, s.256].

Bundan başqa, təlimdə təhsilalanlarda seçim imkanının verilməsi yeni davranış kodeksində şəxsiyyət prinsipinin qorunmasını özündə əks etdirir. Məsələn, təhsilalanların mövzu və fəaliyyət seçimində, müxtəlif icma layihələrində iştirakının olması onların maraqlarına uyğun təşkil edilməsi kimi təklif olunur.

Məlumdur ki, pedaqoji prosesdə təhsilalanların idarəetmə vərdişlərinin formalaşması eyni zamanda müstəqil işin təşkili, forması və əldə olunan nəticələrin səmərəliliyi ilə də ölçü-

lür. Bu effektivliyin əldə olunmasında ali hərbi təhsil müəssisələrinin narahatlıq duyduğu əsas prioritetlər, gənclərdə görünən özünüidarə, özünütəşkil və idarəetmə mədəniyyətinin çatışmazlığıdır. Bu baxımdan, təhsilalanların ali təhsildə kredit sistemindən tədris sisteminə keçməsi təcrübəsi onların təhsil prosesində aktivləşdirilməsini və müstəqil işinin zəruriliyini aşkar etdi. Müşahidələr göstərir ki, təhsilalanların müstəqil işi tədrisin məzmununun daha səmərəli mənimsənilməsini təşviq edir, informativ və peşəkar maraqları stimullaşdırır, yaradıcı və təşəbbüskar bir fəaliyyəti inkişaf etdirir və motivasiyasının yüksəlməsinə imkan yaradır.

Qeyd olunduğu kimi, tələbəyönlü təlim mühitinin təşkili, intellektual fəaliyyətlərin tətbiqi və təqdimetmə onlarda müstəqil işin təşkilinə əsas verir. Müstəqil işin təşkilində müəllim iştirakı az nəzərə alınır və bu zaman hər bir müəllim kursantın yaşını, onun şəxsi keyfiyyətlərini nəzərə almalıdır. Belə intellektual fəaliyyətlər təhsilalanların stimullaşdırılmasına kömək edir və onları müstəqil oriyentasiya üzrə müxtəlif zehni fəaliyyətlərə, tədqiqatlara, problemin müəyyən edilməsi və həllinə cəlb edir. Buradan aydın olur ki, işin icrası zamanı təhsilalanlara metodları seçmək azadlığı verilməsi müstəqil işin təşkilini düzgün istiqamətləndirir. Müstəqil işin növü və kateqoriyasının düzgün seçilməsi onların zəkalarının və qabiliyyətlərinin də düzgün formalaşmasına kömək edir. Bu məqsədlə tədqiqatçılar müstəqil işin təşkili və tətbiqində müasir təlim texnologiyalarını araşdıraraq, Çevik Təlim (Flipped Learning) metodunu və təlimdənkənar Layihə Əsaslı Təlimin (Project-Based learning) məzmununu idarəetmə bacarıqlarının formalaşmasında ən səmərəli strategiya hesab etdi [4; 5].

Son zamanlar ali hərbi təhsil müəssisələrində prioritet məsələ təhsilalanların sosiallaşmasını idarəetmə prosesi kimi müəyyənləşdirməkdir. Burada təhsilalanların sosial mühitə qoşulması ilə idarəetmənin öyrənilməsinin mahiyyəti, sosial təcrübənin qazanılması prosesi və sosial münasibətlər sistemində onların fəallaşması kimi müəyyən edilir. R.M. Giles və A.F.Aşman burada əsas funksiyaları, sosial məlumatların mənimsənilməsini, müxtəlif fəaliyyət və ünsiyyət formalarının inkişafını, sosial şüurun formalaşmasını, empatiya, özünü dərk etmə, sosial təcrübənin öyrənilməsini sosiallaşma prosesinin idarəolunması kimi aşılayır. Aydındır ki, təhsil metodlarının tətbiqində subyektivlik, sosial mühitə uyğunlaşma, bir-birinə kömək, mənəvi dəstək milli dəyərlərə hörmət kimi qarşılanır, özünü və digərlərini idarəetmə kimi qəbul edilir [6, s.14].

Müasir dövrdə hərbi təhsil müəssisələrində texnologiyanın rolu böyükdür. İdarəetmə bacarıqları, müasir texnologiyalar və innovasiyaları tədris prosesinə inteqrasiya etməyi, həmçinin bu sahədə təhsilalanların yeniliklərə adaptasiya olmasını təmin etməyi tələb edir. Sosial mühitin idarəolunmasında digər səriştə texnoloji rəqəmsal vasitələrdən səmərəli istifadə, elektron məkanın ən faydalı elementləri kimi müxtəlif idarəetmə proqramlarının öyrənilməsi, araşdırma, analitik təhlil və sosial problemlərin həlli də daxildir. Sosiallaşma fərdin özünüidarə mexanizminin yaranmasının bir komponenti kimi idraki inkişafı təmin edir və qarşılıqlı ünsiyyətin fundamental bazasını yaradır.

Təhsilalanların sosial əlaqələrinin idarəolunması eyni zamanda zehni fəaliyyətlərin, özünəgüvənin, inam və qərar qəbul etmə bacarıqlarının inkişafında psixoloji amilləri nəzərə alan ən uğurlu təsir vasitələridir. Təhsilalanların icmasının yaradılması müstəqil işin təşkili və sosiallaşma prosesinin idarəolunmasını gücləndirən ən optimal təsir vasitələri kimi dəyərləndirilir. Buradan məlum olur ki, təlimdə idarəetmə bacarıqlarının formalaşması təhsilalanların müstəqil fəaliyyətini formalaşdıran uyğun təlim fəaliyyətini, tapşırıqlarının tətbiqini əks etdirir, davranışın tənzimlənməsini, effektiv, sistematik təlim mühitinin normallaşdırılmasını reallaşdırır.

Tədqiqatçılar ali hərbi təhsil müəssisələrində təhsilalanların idarəetmə bacarıqlarının inkişafında, gələcək karyeralarında müxtəlif məqsədlərə xidmət etməsini, müxtəlif səriştələr çərçivəsində faydalı əhəmiyyətini izah edir və lazım olan faydalı peşə bacarıqlarının seçilməsini tələb edir. Bu bacarıqlara texnoloji idarəetmədə planlaşdırma, vaxtın səmərəli idarəolunması, komandada işləmək, konseptual idarəetmə və komandadan kənar fəaliyyətləri təşkil etmək bacarıqları daxildir.

a. Texnoloji idarəetmə bacarığı

Ali hərbi təhsil müəssisələrində İKT-yə əsaslanan təlim prosesini idarə etməyə imkan verən səriştələrə ehtiyac duyulur. Pedaqoji təlimdə müəllimlər və təhsilalanlar təcrübələrinin

yayılmasında texnologiyanın əvəzedilməz rolunu vurğulayan tədqiqatçı alimlər qeyd edirlər ki, müasir texnologiyalardan səmərəli istifadə vizual təlim mühitində öyrənənlərin intellektual düşüncəsini problemin çevik həlli və səmərəliliyin nümayiş etdirilməsində bir harmoniya yaradır. Tədqiqat göstərir ki, texnologiyadan istifadə etmək təhsilalanların hər hansı bir sahənin planlı idarə olunmasının sübutudur. Təlimdə idarəetmə vərdişlərinin əldə edilməsinə konstruktiv yanaşmanın təşviq edilməsi və fəal təlimə dəstək verməsi sübut edilmişdir. Bu bacarıqlara təlimi planlaşdırma, təlimat rəhbərliyi, qiymətləndirmə, planların təşkili və həyata keçirilməsi, hesablama və təhsil infrastrukturunun idarə olunması, ünsiyyət, informasiya idarəetməsi, effektiv qrup işləmə bacarıqları və s. daxildir. Buna başqa, müstəqil olaraq tədqiqat layihələrində texnoloji idarəetmədə təhsilalanlarda məlumatları analiz etmək, problemlərin həllində çevik şəkildə nəticələri üzə çıxarmaq imkanı qazandırır. Təlim fəaliyyətlərinin qiymətləndirilməsində müasir texnologiyadan istifadə təhsilalanlarda məlumat toplanması, saxlanması və idarə olunmasında əməkdaşlıq, ünsiyyət bacarıqlarının formalaşması ehtimalını artırır.

Bu qabiliyyət təhsilalanlarda optimal və planlı idarəetməni, vaxtın səmərəliliyini və strukturlaşmış ünsiyyəti təmin edir [7; 8; 9].

b. Vaxtın idarə olunması

Ali hərbi təhsil müəssisələrində təhsilalanların əksər hissəsi vaxtlarını lazımi qaydada idarə etməkdə çətinlik çəkirlər. Vaxtın idarəedilməsi onlara gələcəkdə iş-həyat tarazlığı haqqında yeni vərdişlər yaradır, münasibətlər üzrə müxtəlif öhdəlikləri cəmləşdirir və gündəlik işin təşkili ilə bağlı problemlərin həllində düzgün istiqamət verir. Vaxtın idarə olunması təhsilalanlar üçün problem olduğu kimi, müəllimləri də düşündürən problemdir. Vaxtın planlı idarə olunması təhsilalanlarda məsuliyyət, cavabdehlik və hesabatlılıq vərdişlərini formalaşdırır. Vaxtın düzgün bölünməsi müxtəlif tapşırıqların və fəaliyyətlərin həyata keçirilməsində səmərəlilik təmin edir. Təhsilalanlar vaxtı səmərəli idarə etmək üçün planlaşdırma bacarıqlarının təsirli bir element olması qiymətləndirilməlidir. Vaxtın plansız idarə olunması çox vaxt iş yükünün paylanmaması, ağır gün rejimi, balansın pozulması və psixoloji gərginlik yaradır. Çox vaxt təhsilalanlar tapşırıq və fəaliyyətlə məşğul olur, dərsdənkənar və yaradıcı fəaliyyətləri, natamam iş imkanına cəlb olunurlar.

Tədqiqatçılar təhsilalanların bacarıqlarının planlaşdırılmasının onların həm psixoloji inkişafında, həm də sağlamlıq problemlərinin həllində böyük rolunu qeyd edirlər. Xüsusən də, onların imtahanlara hazırlaşarkən müəyyən strategiya və metodlardan xəbərdar olmaları lazımdır. İdarəetmə fəaliyyəti təhsilalanlarda eyni zamanda gün rejimini düzgün qurmaq, kifayət qədər istirahət etmək və hətta ətraf mühit fəaliyyəti ilə məşğul olmasını da planlaşdırır. Əyləncə saatlarının təşkili, kitabxanada vaxt keçirmək, təbiətlə əlaqəli olmaq onların sağlam davranışa malik olmasına zəmanət verir. Məsələn, gün ərzində kompüter arxasında normal saat ərzində vaxt keçirmək, idmanla məşğul olmaq, həftəsonu oxu mütaliəsinə vaxt ayırmaq, birgə əməkdaşlıqda layihə işinə cəlb olunaraq həftədə heç olmasa iki dəfə komandada işləmək, tədqiqat aparmaq, təmiz havada olmaq, çoxlu su içmək, düzgün qidalanmaq, normal saatda yuxu rejiminə əməl etmək və s. kimi faydalı fəaliyyətlər təhsilalma bacarıqlarının daha uyğun şəkildə qazanılmasına imkan yaradır. Bundan əlavə, təhsilalanlar idarəetmə bacarıqlarının inkişafında vaxtın düzgün təşkili onların gələcək peşə və fərdi hədəflərinə çatacaqlarını zəruri edir [10; 11].

c. Komandada işləmək bacarığı

Bu bacarıq digərləri ilə yaxşı işləmək və bir-birini anlamaq, bir komanda daxilində kooperativ səy qurmaq, motivasiya etmək, qrupda işləmək və münaqişələri idarə etmək qabiliyyətini təmsil edir. Bu bacarıqlar bütün səviyyələrdə təhsil menecerləri üçün vacib sayılır.

d. Konseptual idarəetmə bacarıqları

Bu bacarıqlar təhsilalanlarda yeni yanaşma haqqında konsepsiya yaratmaq, müvafiq terminlər və qabaqcıl ideyalar haqqında ümumi rəy yaratmaq, pedaqoji prosesin məzmunu, təşkili, inteqrasiyası, əldə olunacaq son nəticələr, müəllim-kursant münasibətləri, psixoloji dəstək, motivasiya və digər vəziyyətləri düşünmək qabiliyyətini əhatə edir. Konseptual idarəetmə bacarıqlarına təhsilalanlar təhsil və idrak fəaliyyətinin formalaşması üçün ünsiyyət prosesini dəstəkləmək və təhsilalanların yeni sosial şəraitdə həyata hazırlaşması da daxildir. Burada problemin tam görünməsi, müxtəlif fərdlər arasındakı münasibətlərin idarəolunması və təlimdə problemin

daha geniş mühitdə həlli haqqında təsəvvür yaratmalıdır [12; 13].

e. Şəxsi bacarıqların idarə olunması

Bu sistemə təhsilalanların auditoriyadankənar situasiyalarda digər insanlarla birbaşa əlaqələri, effektiv ünsiyyət qurması, məlumat toplamaq, səbəb və nəticələri dəqiqləşdirmək kimi inkişaf etmiş bacarıqları da daxildir. Bu cür bacarıqlar məsuliyyət hissi, yaradıcılıq, aktivlik və tənqidə dözümlülüyü formalaşdırır. Bu proses mövcud problemləri qabaqcadan tapmaq və məhsuldar öyrənmə mühitini yaratmağa kömək edir, onu müəllimlərin və təhsilalanların birgə əməkdaşlığı ilə əlaqələndirir. Beləliklə, pedaqoji prosesdə təhsilalanların idarəetmə bacarıqları qeyri-standart bir idarəetmə fəaliyyət növü kimi izah edilir [14;15].

f. Karyera bacarıqlarının qazanılması

Tədrisdə idarəetmə bacarıqlarının təhsilalanlarda düzgün hədəflənməsi onların gələcək fəaliyyətlərində özünə etimadı gücləndirir və rəqabətqabiliyyətli olmasını tələb edir. Pedaqoji proses təhsilalanlar arasında idarəetmənin inkişafını onların gələcək karyera məqsədlərinin həyata keçirilməsində ən vacib kompetensiya hesab edir. Bacarıq, bilik, təcrübə, çevik fəaliyyət və praktiki təcrübə hər hansı fəaliyyəti yaxşı etmək bacarığı kimi başa düşülür.

g. Qərarvermə bacarıqları

İdarəetmə və tədris prosesində qərar vermə qabiliyyətinin inkişafı əsas prioritet olmalıdır. Bu, yalnız tədris planlarının hazırlanmasında deyil, eyni zamanda resursların idarə edilməsində və komandaların fəaliyyətinin koordinasiyasında da vacibdir.

**Problemin aktuallığı.** Ali hərbi təhsil müəssisələrində tədris prosesində idarəetmə bacarıqlarının formalaşması mövzusu, təhsil və tədrisin idarəedilməsi sahələrinin kəsişməsində yer alan çoxşaxəli bir mövzudur. Bu mövzu hərbi təhsil müəssisələrində tədrisin keyfiyyətini və təhsil sisteminin səmərəliliyini artırmaq məqsədilə idarəetmə bacarıqlarının inkişaf etdirilməsinin vacibliyini vurğulayır. Belə müəssisələrdə tədris prosesi yalnız akademik biliklərlə məhdudlaşmır, eyni zamanda təhsilalanların şəxsi və peşəkar inkişafını dəstəkləyən idarəetmə və liderlik bacarıqlarını formalaşdırmağa yönəlir.

**Problemin elmi yeniliyi.** Aparılan təhlillər sübut edir ki, ali hərbi təhsil müəssisələrində təhsilalanların idarəetmə bacarıqlarının formalaşması öncə onun mahiyyəti, məzmunu və məqsədlərinin düzgün müəyyən edilməsini, nəzəri ideyaları müxtəlif prizmalardan araşdırır. Məlum olur ki, idarəetmə vərdişlərinin müasir cəmiyyətin tələblərinə uyğun təhsilalanların yeni elmi-siyasi, hərbi, sosial, iqtisadi, mədəni və ekoloji baxışlarının formalaşmasına xidmət edir.

**Problemin praktik əhəmiyyəti.** Ali hərbi təhsil müəssisələrində idarəetmə bacarıqlarının formalaşması, tədris prosesinin effektivliyini artırmaqla yanaşı, gələcəkdə mütəxəssis və lider kadrların yetişdirilməsinə də mühüm töhfə verir. Bu sahədə həyata keçirilən tədbirlər və inkişaf proqramları, hərbi təhsil müəssisələrinin ümumi keyfiyyətinə və nəticələrinə birbaşa təsir göstərir. Təhsilalanların yalnız hərbi biliklərə yiyələnməsi deyil, eyni zamanda güclü idarəetmə bacarıqları ilə təchiz olunması, onların gələcək karyeralarında müvəffəqiyyət əldə etmələrinə kömək edir.

## Ədəbiyyat:


1. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" üzrə Fəaliyyət Planı, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmişdir //– Bakı şəhəri, – 18 iyul, – 2018-ci il, №311
2. Ordonez, V. The Changing Role of Leadership (or A Changing Leadership for a Changing World). /In: Hershock, P.D., Mason, M., Hawkins, J.N. (eds.) / V.Ordonez. – Changing Education, – 2007. – p.249-272
3. Milkovich, G.T. Compensation. 8th Edition / G.T.Milkovich, J.M.Newman. – Boston: McGraw Hill, – 2005. – 447p.
4. O'Flaherty, J. and Phillips, C. The use of flipped classrooms in higher education // A scoping review, The Internet and Higher Education, – 2015. No 25, – p.85- 95.
5. Stoller, F. Establishing a theoretical foundation for project-based learning in second and foreign language contexts / In Beckett, G., H. & P. C. Miller (Eds.), Project-Based Second and Foreign Language education: past, present, and future/ F.Stoller. – Greenwich, Connecticut: Information Age Publishing, 2006. p. 19-40.
6. Mahmudova R. Ali məktəbdə tələbə müstəqil işinin imkanları və yolları / –Bakı: Çaşoğlu, – 2005. – 136 s.
7. Mahmudova R. Ali məktəbdə tələbə müstəqil işinin imkanları və yolları / –Bakı: Çaşoğlu, – 2005. – 136 s.
8. Veyisova, Z. Fəal interaktiv təlim. Müəllimlər üçün vəsait. / – Bakı: UNİSEF, – 2007. – 156 s.
9. Анисимова, Л.А., Козлова, Н.Г. Кейс-метод на занятиях по английскому языку – средство обучения студентов-менеджеров принятию решения // «Профессиональная компетенция преподавателя в современной парадигме образования», Сборник материалов и тезисов докладов XIV

Межрегиональной научно-практической конференции. – Самара: Самар.гос. аэрокосм. ун-т., – 2008, – с. 79-82.
10. McLeod, J. The key elements of classroom management: Managing time and space, student behavior, and instructional strategies / J.McLeod, J.Fisher, & G.Hoover. – Alexandria, Virginia USA, Association for Supervision and Curriculum Development (ASCD), – 2003. – p. 134
11. O'Connell, V.A. The healthy college student: The impact of Daily routines on illness burden // SAGE Open, – 2014. doi:10.1177/2158244014547181 (3).
12. Əhmədov, H.H. İdarəetmənin pedaqogikası və psixologiyası / H.H. Əhmədov. – Bakı: –2000. – 384 s.
13. Əlizadə Ə. Pedaqoji psixologiya / Ə. Əlizadə, H. Əlizadə. – Bakı: – 2010. – 319 s.
14. Əzimov Q.E. Psixi inkişaf və tərbiyənin müasir problemləri / Q.E. Əzimov. – Bakı: – 2004. – 385 s.
15. İlyasov, M.İ. Müəllimin pedaqoji ustalığı / M.İ. İlyasov. – Bakı: Elm və təhsil, –2013. – 386 s.

**Redaksiyaya daxil olub:** 31.01.2025